# Uşaqların tərbiyəsində oyunların rolu

Uşaqların ətraf aləmi qavramasında düşündürücü oyunlar əsas rol oynayır. Bu zaman duyğu, hiss qavrayış, təsəvür etmə prosesi birgə inkişaf edir. Bu cür tərbiyə formasına sensor tərbiyə deyilir.

Sensor tərbiyənin başlıca vəzitfəsi, uşaqlarda əşya və hadisələri qavramaq və təsəvvür etmək qabiliyyətini formalaşdırmaqdan ibarətdir. Oyunlar uşaq həyatının zəruri yoldaşıdır və uşağa əhatə olunduğu həyatı öyrənməkdə kömək edir. Oyun azyaşlıların əsas fəaliyyət növlərindən biri olmaqla uşağın fiziki tərbiyəsində də əsas vasitədir. Uşaq oynayarkən müxtəlif hərəkətlər edir, bu da onun oraqnizminin fəaliyyətini artırır. Oyundan sonra uşaqlar özlərini şən və gümrah hiss edirlər.

Məsələn «Top aldıqaç», «Cizlənqaç», «Qurd və quzu», «Bənövşə bəndə düşə», «Qazlar-qazlar» və s. kimi oyunları uşaqlar maraq və həvəslə oynayırlar. Bu oyunlar ta qədimdən bu günə kimi qorunub saxlanmış və günümüzə gəlib çıxmışdır. Lakin bu oyunlarla bərabər məktəbəqədər müəssisələrdə yaradıcı oyunlardan da istifadə etmək lazımdır. Belə ki, tərbiyəçilər öz təxəyyüllərinə uyğun oyun quraşdıraraq bu oyunlara bütün uşaqarı cəlb edə bilir. Məsələn «Qəribə torbacıq», «Rənglər», «Taptapmaca», «Biçinçilər» və s. oyunları göstərmək olar. Oyun uşaqların əmək tərbiyəsinə də öz təsirini göstərir. Onlar oyunun gedişində müəyyən iş görür, çoxlu suallar verir, hər şeyi öyrənməyə can atırlar. Oyun uşaqların lüğət ehtiyatını zənginləşdirir, rabitəli nitqin inkişafına təkan verir. Odur ki, onların hər bir sualına, marağına qayğı və səbrlə yanaşılmalıdır.

Uşaqlarda qabliyyətin inkişafı mürəkkəb məsələdir. Bu tərbiyəçidən xüsusi axtarışlar tələb edir. O. hər şeydən əvvəl uşaqları duymalı, meyl və maraqlarını düzgün müəyyənləşdirməlidir.

Didaktik oyun kurikuluma uyğunlaşdırılaraq uşaqların yaşına uyğun formalarda həyata keçirilir. Oyunları elə keçirmək lazmdır ki, uşaqlarda gümrah, şən əhval-ruhiyyə oyatsın, uşaqlara bir-birinə mane olmadan oynamağı öyrətsin və birgə oynamaq marağını inkişaf etdirib, kollektivçiliyə alışdırsın.

**Natəvan ƏFƏNDİYEVA,**
**şəhər 3 nömrəli uşaq bağçasının müdiri.**

## Təbrik edirik!



**Əzizimiz Gülay!**

**5 yaşın mübarək!**

**Səni əzizlərin, bütün qohumların ürəkdən təbrik edir, hamımız sənə can sağlığı, Vətənə, elinə, ailənə layiqli övlad kimi böyüməyi arzulayırıq.**

**Babaların, nənələrin, atan, anan, əmilərin, dayıların, xalan.**

## Fatimə balamız!

**5 yaşın tamam olması münasibəti ilə, bütün səni sevənlər - babaların- Qüdrət və Hidayət nənələrin - Tamella və Mülayim, bibin- Vəfa, xalaların- Aynur və Həmidə, dayın-Səxavət, əmin - Səməd və biz atan - Vüsal, anan -Rəna təbrik edirik. Gözəl balamız bizim ömrümüzə gətirdiyin xoşbəxtlik bizdən sənə arzu olsun və gələcək təhsilində müvəffəqiyyət qismətin olsun, uğur ömrün boyu Səni izləməkdən bir an olsun yayınmasın.**



# Novruzgülü—çox dərdin dərmanı

Novruzgülü müalicəvi bitkidir. Zəhərlənmək qorxusu olduğu üçün həkimlə məsləhətləşmədən onu qəbul etmək olmaz. Məhəmməd Möminə görə novruzgülünun soğanağı 7 il öz müalicəvi təsirini saxlayır. O, bəlğəmgətirici keyfiyətə malikdir, irini çəkir, sarılığa və dalaq xəstəliyinə xeyirlidir. Novruzgülünun şirəsi və ya həlimi revmatizmə müsbət təsir edir. Bitkinin həlimi ilə zəfəran və çiy yumurtadan hazırlanmış kompres sümük travmalarında faydflıdır və şişləri sorur. Novruzgülü həlimindən və köhnə qoyun piyindən hazırlanmış tampondan babisil xəstəliyində istifadə edilir. Eləcə də onun köklərindən hazırlanan toz xoranı qurudur. "Töhfətül-möminin" (1669 il) əsərində novruzgülünu daxilə qəbul etdikdə onun mədəyə, qara ciyərə mənfi təsir göstərdiyi qeyd olunur.

İbn Sina yazır ki, novruzgülü mədəni zəiflədir. Xaricdən istifadə olunduqda o, köhnə (xroniki) xoralara, yel (podaqra), əzələ ağrıları kimi xəstə-



liklərdə xeyirlidir. Zəhərlidir.

"Tibbnamə"də bu bitki "səvrincan" adlanır, revmatizmə qarşı və yarasağaldan vasitə kimi təqdim edilir. Bu əsərə əsasən: "Novruzgülü həlimi üz sinirinin iflicində, ümumi iflicdə, əsəb xəstəliklərində xeyirlidir. Əgər onun şirəsinin kompresini ağrıyan ayaqlara qoysan, ağrı rəf olar. Sınaqdan keçib".

**MÜASİR ELMİ TƏBABƏT:** Novruzgülü soğanağının tərkibində olan zəhərli alkoloid kolxiserin (kolxisin və kolxaminin ekvimalekulyar birləşməsidir), 1%-li məhlul halında toxuma hüceyrələrində mitozu (bölünməni) yatırdır və xərçəng hüceyrələrinin yayılmasını yubadır. Kolxaminin zəhərliliyi bir qədər azdır, ondan 1-ci və 2-ci dərəcəli dəri xərçənginin müalicəsində istifadə edirlər. Kökyumruları və toxumları sulu həlim və cövhər kimi xroniki leykozun müalicəsində istifadə olunur.

## Xeyirxah insanlardan kömək gözləyirik

Oğlum Ağalar ağır xəstəlikdən əziyyət çəkir. Onu müalicə etdirməyə maddi imkanım yoxdur. Ümidim xeyirxah insanlaradır. Xahiş edirəm oğlumun müalicəsi üçün əlinizdən gələn köməyi əsirgəməyəsiniz.

Azərbaycan Beynəlxalq Bankının Qəbələ Filalında hesab nömrəmiz: **AZ07İBAZ 33881019445044117323**

**Azad İsayev.**

## İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 28 oktyabr 1998-ci il tarixli DİSPLAY 19 saylı qərarı ilə Vəndam qəsəbə (kənd) sakini **Rəhimov Miri Əli oğluna** verilmiş JN seriyalı 1995 A nömrəli (kod 40600048) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Nic Bələdiyyəsinin 23 fevral 2002-ci il tarixli 3 saylı qərarı və 5 yanvar 2003-cü il tarixli 13 saylı icarə müqaviləsi ilə qəsəbə sakini **Məmmədov Zahir Tahir oğluna** kənd təsərrüfatı məhsullarının istehsal edilməsi məqsədilə verilmiş JN seriyalı 7460 nömrəli (kod 40600068) **torpaq sahəsindən müvəqqəti istifadə şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 10 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Kiçik Pirəli kənd sakini **Yusibov İlqar Ənvər oğluna** verilmiş JN seriyalı 0058 nömrəli (kod 40602028) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komisiyasının 28 oktyabr 1998-ci il tarixli 19 nömrəli qərarı ilə Vəndam qəsəbə sakini **Qasımov Səlimxan Mirzalı oğluna və ailə üzvlərinə** verilmiş JN- 1160 F nömrəli (kod 40600048) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 25 iyun 1998-ci il tarixli 11 saylı qərarı ilə Bum qəsəbə (kənd) sakini **Musayev İsmayıl Məhəmmədəli oğluna** verilmiş JN seriyalı 033 F nömrəli (kod 40800038) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Kürd kənd sakini **Tarverdiyeva Elşad Hüsən qızına** verilmiş JN seriyalı 0099 nömrəli (kod 40610018) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

## Maraqlı sətirlər

NASA 7 planet kəşf edildiyini açıqlayıb. Həmin planetlərin 40 işıq ili uzaqlığında olduğu və Günəş sisteminin xaricindəki ulduzların ətrafında dövr etdiyi bildirilib. Vurğulanıb ki, bu kəşf digər planetlərdə canlı varlıqların yaşayıb-yaşamaması ilə bağlı aparılan tədqiqatlar üçün ciddi əsas yaradacaq.

* * *

Saat zolaqlarının sayı ən çox olan ölkə Fransadır. Fransanın dəniz əraziləri daxil olmaqla bütün ərazisini nəzərə alsaq görərik ki, bu ölkə 12 saat zolağında yerləşir. ABŞ 11 saat zolağını, Rusiya 9 saat zolağını əhatə edir.

«QƏBƏLƏ» qəzetinə 2017-ci il üçün abunə yazılışı davam edir

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

## ALLAH RƏHMƏT ELƏSİN!

10 saylı Ərazi Vergilər İdarəsinin kollektivi idarənin direktoru **Cavid Kəngərliyə** əzizi

**RAMİZ BAĞIROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Redaktor
Varis Yaqubov

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər
Məsul katib
Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1700